*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 32-40* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.32*

# CƏNUB BÖLGƏSİNDƏ AZƏRBAYCAN DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİN TARİXİ KÖKLƏRİ

**Reyhanə Sadıxova**
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Azərbaycan.
E-mail: reyhanesadiqova@gmail.com

**Annotasiya.** Hər hansı coğrafi ərazidə min illərlə məskunlaşmış, dünya sivilizasiyasının inkişafına qiymətli töhfələr vermiş xalqların dövlətçilik ənənələrinin öyrənilməsi təkcə keçmişi bilmək baxımından deyil, gələcək inkişafın istiqamətlərini müəyyənləşdirmək cəhətdən də önəmli məsələlərdəndir. Dövlətçilik tarixinin araşdırılması müstəqil və suveren dövlət tarixinin bəzi qaranlıq dönəmlərini işıqlandırmaqla bərabər, milli kimliyin müəyyən edilməsi baxımından da olduqca əhəmiyyətlidir. Xalqın, millətin hər bir fərdi öz dövlətinin keçib gəldiyi yolun şanlı səhifələrini dərindən bilməli və ona güclü dövlətçilik ənənələri qoyub getmiş əcdadlarının mirasına sahib çıxmağı bacarmalıdır. Çoxəsrlik tarixi keçmişə malik olan Azərbaycan xalqının da uzun bir inkişaf yolu keçmiş, sabitləşmiş və vahid sistem kimi formalaşmış zəngin milli dövlətçilik ənənələri vardır.
Məqalədə Azərbaycan dövlətçilik ənənələri və onun cənub bölgəmizdəki tarixi kökləri, Lənkəran xanlığının Azərbaycan dövlətçiliyinin tarixində oynadığı rol araşdırılmışdır.
**Açar sözlər:** dövlət, xalq, millət, Heydər Əliyev, Azərbaycan, Cənub bölgəsi, Lənkəran xanlığı

**Məqalə tarixçəsi:** göndərilib – 27.01.2023; qəbul edilib – 10.02.2023

# HISTORICAL ROOTS OF AZERBAIJANI STATEHOOD TRADITIONS IN THE SOUTHERN REGION

**Reyhana Sadikhova**
Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS. Azerbaijan.
E-mail: reyhanesadiqova@gmail.com

**Abstract**. Studying the statehood traditions of peoples who have settled in any geographical area for thousands of years, made valuable contributions to the development of world civilization and established states that have left a mark in world history from time to time is important not only in terms of knowing the past, but also in terms of determining the directions of future development. At the same time, the study of the history of statehood is very important for determining the national identity by illuminating some dark periods of the history of an independent and sovereign state, especially for ensuring the connection of the growing generation with its national past. Every individual of the people and the nation should know deeply the glorious pages of the path of their state and should be able to take possession of the legacy of their ancestors who left strong traditions of statehood. The people of Azerbaijan with a centuries-old historical past also have rich traditions of national statehood that have gone through a long development path, stabilized and formed as a single system.
The article examines the traditions of Azerbaijani statehood and its historical roots in our Southern region, the role played by Lankaran Khanate in the history of Azerbaijani statehood.
**Keywords:** state, people, nation, Heydar Aliyev, Azerbaijan, Southern region, Lankaran Khanate

**Article history:** received – 27.01.2023; accepted − 10.02.2023

## Giriş / *Introduction*

Azərbaycan xalqının istər şifahi, istərsə də yazılı ədəbiyyat nümunələrində zaman-zaman dövlətçilik, onun atributları, dövlətin təşkili və idarə olunması, dövlət başçısının şəxsi keyfiyyətləri və s. kimi məsələlərin əks olunduğunu görürük. Orxon-Yenisey kitabələrində təsvir olunmuş Qutluq Kağan, Gültəkin, Bilgə Kağan, Tonyukuk kimi türk dövlət xadimlərinin hakimiyyətlərindən tutmuş, türk yazılı abidələrində, hətta Çin kitabələrində önə çıxarılan dövlətin yaranması və idarə olunması, hökmdarların fəaliyyəti, hakimiyyətin pillələr arasında necə paylandığı və s. məqamlar türk dövlətçilik tarixinin öyrənilməsi baxımından əhəmiyyətli mənbələrdir. Dosent Ağaverdi Xəlil dövlətçilik ənənələrinin ilk öncə xalqın təfəkküründə, düşüncə tərzində yarandığını yazır: "Dövlət gerçək olmazdan öncə, o, xalqın arzu və istəklərində, düşüncə və xəyallarında yaranır və uyğun tarixi şəraitdə gerçəkləşir. İcma, ailə və tayfa mədəniyyətinin və bu mədəniyyəti xalq hafizəsində yaşadan folklorun dövlətçilikdə xüsusi rolu olur. Çünki etnik-milli özünütəşkilin ən nikbin yolu folklorda mövcud olan mənəvi dəyərlərdən keçir. Başqa sözlə, folklorunda dövlətçilik ideyası olan xalqın dövlət qurması da asanlıqla baş verir. Çünki folklor dövlətçiliyin mənəvi əsasıdır. Folklor irsini yaddaşında və davranışında yaşadan xalq dövlətçilik təcrübəsində sosial harmoniyanı təmin etmək üçün çətinlik çəkmir" [2].

## Əsas hissə / *Main Part*

XII əsr dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərində yer alan dövlətin idarə edilməsi, dövlət və xalq münasibətləri, demokratik dövlət necə olmalıdır, ədalətli hökmdar və s. məsələlərin əks olunması da artıq dövlətçilik ideyalarının Azərbaycan milli təfəkküründə də sabitləşməsinin bariz sübutudur. Akademik Teymur Kərimlinin də qeyd etdiyi kimi, "Nizami, bir siyasi-ictimai institut kimi dövlətin rolunu çox yüksək qiymətləndirirdi və xüsusən onun başçısının şəxsi keyfiyyətlərinə böyük əhəmiyyət verirdi" [2, s.24]. Dosent Təhminə Bədəlova "Nizami Gəncəvinin "Sirlər xəzinəsi" məsnəvisində dövlət, hökmdar və xalq münasibətlərinin bədii həlli" məqaləsində şairin "müstəqil, azad dövlət necə idarə olunmalıdır" probleminə dair görüşlərini aşağıdakı kimi ümumiləşdirir: "hökmdar (dövlət başçısı), ilk növbədə, məmləkəti abad etməlidir ("Əgər sən şahsansa, şahlıq mülkünü abad et"); məmləkətin hər bir vətəndaşı dövlətin sabitliyi və möhkəmliyi üçün birləşməli və hökmdar da məmləkətin (dövlətin) hər bir vətəndaşının taleyi üçün cavabdehlik daşımalıdır ("Sinəni gər, bunlar hamısı sinələrini səninçün gəriblər"); hökmdar-xalq münasibətlərinin möhkəmliyi üçün yerlərdə ixtiyar sahibi olan məmurlar öz vəzifələrini layiqincə yerinə yetirməlidirlər; qoşunun (ordunun) qayğısına qalmaq (Ölkənin və qoşunun xeyirxahı olsan, / bütün ölkə və qoşun da sənə yaxşılıq diləyəcəkdir); zülmün kökünü kəsmək (Məmləkətin evini yıxan sitəmkarlıqdır / Əbədi dövlət xalqı az incitməkdən hasil olur); xalq malına göz dikməmək (Elə bil zəiflərin malını ələ keçirdin, ...Onda qiyamət günündə mühakimə başlayanda \ Utanmayacaqsanmı?..); ədalətli olmaq (Ölkəni yalnız ədalətlə almaq olar. Ədalət məmləkəti abad edən bir zəhmətkeşdir. Məmləkət yalnız ədalətlə əbədi qüdrətli ola bilər) və sair" [3, s.237].

Azərbaycanda yüz illər öncə yadelli işğallardan qorunmaq məqsədilə tikilmiş qalalar da bu ərazidə dövlət idarəçiliyi mədəniyyətinin mütəşəkkilliyinin izləridir.

Azərbaycan dövlətçiliyinin tarixən mövcud olmuş ideoloji istiqaməti, əsaslandığı başlıca prinsiplər və müstəqil Azərbaycan dövlətinin təşəkkülündə bunların rolu və sairə məsələlər həmişə aktuallığını qoruyub saxlayan və gələcək inkişafımız üçün gərəkli olan mövzulardandır. Çünki Avropa və Asiya, Rusiya ilə Yaxın və Orta Şərq arasında çox əhəmiyyətli strateji

mövqedə yerləşən, nadir yerüstü və yeraltı sərvətlərin beşiyi olan Azərbaycanın dövlətçilik ənənələrinin keçib gəldiyi yol o qədər zəngin, keşməkeşli, enişli-yoxuşlu və ziddiyyətlərlə dolu, lakin bütün bunlarla bərabər, həm də olduqca qürurverici və şərəflidir ki, tədqiqatçı alimlərimizin problemə yanaşma üsulundan, araşdırıcılıq səriştəsindən, mənbə və materiallarla işləmə bacarığından və s. asılı olaraq hər bir tədqiqatda maraqlı və gərəkli məqamlar ortaya çıxır.

Fəlsəfə üzrə fəlsəfə doktoru Vahid Ömərov Azərbaycanın zəngin dövlətçilik tarixindən bəhs edərkən yazır: "Azərbaycanda dövlətçilik ənənələrinin tarixi 5 min il əvvəllərə gedib çıxır. Azərbaycan ərazisində ilk dövlət qurumları hələ eramızdan əvvəl IV minilliyin sonu – III minilliyin əvvəllərindən başlayaraq yaranmışdı. Ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynayırdılar" [9].

Ən qədim insan məskənlərindən olan Azərbaycan dünya sivilizasiyası tarixində mədəni və siyasi baxımdan önəmli rol oynamışdır. Qeyd edək ki, türk dövlətçiliyinin tarixi köklərinin şumerlərə gedib çıxması artıq tədqiqatçılar tərəfindən qəbul olunmuş faktdır. Urmiya gölü, bəzi dönəmlərdə Dəclə və Fərat vadiləri də daxil olmaqla, İran körfəzinədək uzanan geniş bir coğrafiyada hökmran olmuş qədim Azərbaycan dövlət qurumları – Lullubi və Qutilər təkcə Azərbaycanın deyil, bütövlükdə qədim Şərq dövlətçiliyinin tarixində də böyük rol oynamışlar. Azərbaycan ərazisində tarixən mövcud olmuş dövlətlər – Urmiya ətrafındakı bütün xırda dövlət birləşmələrini də öz hakimiyyəti altına almış və üç yüz ilə yaxın bir müddət ərzində, Araz çayından Xəzər dənizinə qədər olan ərazilərdə mövcud olmuş, bölgənin hərbi-siyasi həyatında nüfuzlu rola malik, ağsaqqallar şurası tərəfindən idarə olunmuş Manna dövləti, daha sonralar isə Midiya, İsgit və Massaget şahlıqları, Atropatena, paytaxtı əvvəl Qəbələ, sonra isə Bərdə şəhəri olmuş, Dağıstanın cənubu da (Dərbənd və ətraf ərazilərlə birlikdə) daxil olmaqla, Baş Qafqaz dağlarından başlayaraq, Cənubda Araz çayına qədər, qərbdə isə Göyçə gölü hövzəsi, Qabırrı (İori) və Qanıx (Alazan) çaylarının yuxarılarından başlayaraq, Şərqə doğru Xəzər dənizinədək uzanıb gedən sərhədlərə malik Albaniya qədim və ilkin orta əsrlər tarixinin ən güclü dövlətlərindən hesab olunur.

Tədqiqatçıların yazdıqlarına görə, "Azərbaycanın, Oğuz xaqanın başçılıq etdiyi dövlətin tərkibinə daxil olması və böyük xaqanın özünün də burada – Göyçə dənizi ətrafında vəfat etməsi bu diyarın ən qədim oğuz məskənlərindən biri olduğunu sübut edir" [6].

Tarix göstərir ki, zaman-zaman işğallar, siyasi istilalar, hərbi yürüşlər Azərbaycanda sabitləşmiş dövlətçilik ənənələrini məhv edə bilməmiş, tarixin sınaqlarından üzüağ çıxmış xalq yenidən öz dövlətini qurmuşdur. Ayrı-ayrı dövrlərdə Əhəməni-İran, Makedoniyalı İskəndər, Sasani-İran, Ərəb xilafəti, monqol yürüşləri və s. kimi işğallar Azərbaycanda xalqın formalaşması prosesini dayandıra bilməmişdir. "Xilafət dağıldıqdan sonra – IX əsrin ortalarından Azərbaycanın qədim dövlətçilik ənənələri yenidən dirçəldi. Azərbaycan torpaqlarında Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətləri yarandı. ...Böyük Səlcuq imperatorluğunun süqutundan sonra qüvvətlənən Şirvanşahlar və Eldənizlər dövlətləri Azərbaycan xalqının dövlətçilik ənənələrinin davam etdirilməsində və daha da yüksəlişində mühüm rol oynadılar" [10].

Azərbaycanın dövlətçilik tarixinin bu dönəmi iqtisadi, siyasi və mədəni yüksəlişə nail olmuş Sacilərin adı ilə bağlıdır. 879-941-ci illərdə bütün Azərbaycan torpaqları Zəncandan Dərbəndə, Xəzər sahillərindən Ani və Dəbil şəhərlərinə qədər geniş əraziləri əhatə edən vahid türk dövləti Sacilərin sərhədləri daxilində birləşdirildi. Bu birlik həm ölkənin ayrı-ayrı vilayətləri arasında iqtisadi birliyin güclənməsinə, həm də vahid mədəniyyətin formalaşmasına, din-dil birliyinin yaranmasına çox böyük təsir göstərdi. Sacilər dövlətinin mövcudluğu dönəmində xarici basqınların qarşısının alınması, ərazi bütövlüyünün, dövlətçilik ənənələrinin, sərhədlərin toxunulmazlığının təmin edilməsi, vahid coğrafiyada etnik-milli birliyin bərqərar olması Azərbaycanın gələcək tarixinin həlledici məqamlarına çevrildi.

XV əsrdən başlayaraq tam üç yüzillik boyunca çox geniş ərazilərə malik, Şərqdə və qismən də Avropada tarixin gedişinə öz təsirini göstərmiş qüdrətli dövlətlər – Qaraqoyunlu,

Ağqoyunlu dövlətləri və bütün Azərbaycan torpaqlarını vahid hakimiyyət altında birləşdirən, paytaxtı Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən Təbriz şəhəri olan, Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından biri – Səfəvi imperiyasının yaranması və fəaliyyəti Azərbaycan dövlətçiliyinin tarixi salnaməsinin ən şərəfli səhifələrini təşkil edir. “IX əsrin ortalarından başlayaraq Qafqazda, habelə bütün Yaxın və Orta Şərqdə türk-islam dövlətlərinin (Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər, Şəki hakimliyi, Səlcuqlar, Eldənizlər, Monqollar, Elxanilər (Hülakular), Teymurilər, Osmanlılar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və s.) rolu artdı. Azərbaycan uzun zaman bu dövlətlərin əksəriyyətinin mərkəzi vilayəti, Təbriz isə paytaxtı oldu” [6].

Adıçəkilən dövlətlərin yürütdükləri daxili və xarici siyasət, beynəlxalq əlaqələrin genişlənməsi, Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması, xüsusilə də dövlətlərarası danışıqlarda məhz Azərbaycan dilinin işlənməsi çox mühüm lokal və qlobal əhəmiyyət daşıyır. Bu mərhələdə yetişmiş görkəmli və dünya tarixinin önəmli şəxsiyyətləri ilə bir sırada dayanmağa layiq siyasi və ictimai xadimlərin, dövlət başçılarının, cahana hökm etmək iddiasında olan uzaqgörən, güclü azərbaycanlı hökmdarların – Qara Yusif, Uzun Həsən, Şah İsmayıl, Şah Təhmasib, Şah Abbasın yetişməsi də Azərbaycan dövlətçilik ənənələrinin möhkəmlənməsinin nəticələri idi.

Səfəvilərdən sonra Azərbaycan dövlətçiliyinin tarixində Nadir şahın hakimiyyət mərhələsi başlayır və Azərbaycan dövlətinin sərhədləri daha da genişlənir.

XVIII əsrin ikinci yarısından etibarən isə Nadir şahdan sonra süquta uğrayan imperiyanın ayrı-ayrı ərazilərində Azərbaycan xanlıqları yaranmağa başlayır: Gəncə xanlığı, Bakı xanlığı, Quba xanlığı, Qarabağ xanlığı, Şəki xanlığı və s. Yaranmış xanlıqlardan biri də Lənkəran xanlığı idi.

1747-ci ildə yaranan Lənkəran xanlığının əsası 1736-1747-ci illərdə Lənkəran hakimi olmuş səfəvi soylu, ərdəbilli Seyid Abbasın oğlu Cəmaləddin Mirzə bəy tərəfindən qoyulmuşdur. Xanlığın mərkəzi ilk vaxtlar Qızılağac kəndi, sonra Astara olmuş, sonradan isə qala divarları ilə əhatə olunmuş Lənkəran şəhərinə köçürülmüşdür. Lənkəran xanlığının “sərhədləri təxminən şimaldan Bolqarçayın, şərqdən Kür çayının mənsəbinədək Xəzər dənizinə, cənubdan və qərbdən İran sərhədlərinə qədər bir ərazini əhatə edirdi. Belə ki, Talış xanlığı şimal-şərqdə Quba xanlığına tabe olan Salyan sultanlığı ilə, şimalda ərazisi sonradan Şamaxı xanlığı ilə Qarabağ xanlığı arasında bölüşdürülmüş Cavad xanlığı ilə, şimal-qərbdə Qaradağ xanlığı ilə, qərbdə Ərdəbil xanlığı ilə, cənubda isə Gilan xanlığı ilə həmsərhəd idi” [7]. Xanlıq Atara, Dəştvənd, Xanbili, Əsalim, Sırıq, Gərqənrud, Astara, Vilgic, Zuvand, Çayiçi, Lənkəran, Driğ, Uluf, Ərkivan, Ucarud, Adınabazar, Muğan, Piran (d), Orand, Muranqul, Talış və Səfidəşt mahallarına bölünürdü. Xanlığa 1747-1786-cı illərdə Cəmaləddin Mirzə bəy (Qara xan), 1787-1814-cü illərdə Mir Mustafa xan, 1814-1826-cı illərdə isə Mir Həsən xan hökmranlıq etmişlər.

Qara xan adı ilə də tanınmış, Nadir şahın Dağıstana qarşı hərbi səfərlərində iştirak etmiş və şahın rəğbətini qazanmış, 1741-ci ildə şah tərəfindən “xan” titulu ilə mükafatlandırılmış Cəmaləddin Mirzə bəyin hakimiyyəti dövründə xanlıq iqtisadi və siyasi yüksəliş dövrünü yaşamış, nizami qoşun yaradılmışdı. Başqa sözlə desək, bütün dövlət qurumlarında olduğu kimi, siyasi sabitlik iqtisadi yüksəlişi təmin etmişdi. Mərkəzi hakimiyyət gücləndirilmiş, tabe olmayan feodalların torpaqları müsadirə edilmişdi. Xanlığın mərkəzinin Astaradan Lənkərana köçürülməsi də Cəmaləddin Mirzənin təşəbbüsü idi. O, xanlığın paytaxtını İranın hücumlarından qorumaq üçün bu addımı atmışdı. Lənkəran xanlığının ərazisində intensiv abadlıq işlərinin aparılması da məhz Qara xanın adı ilə bağlıdır.

Lənkəranın coğrafi mövqeyi, Xəzər dənizinin sahillərində yerləşməsi onu əhəmiyyətli bir liman şəhərinə çevirmişdi və artıq Dərbənd, Niyazabad və Bakı ilə yanaşı, Azərbaycanın daxili və xarici ticarət əlaqələrində fəal iştirak edirdi və getdikcə ticarət mərkəzi kimi tanınmağa başlayırdı. Ən əsas ticarət mərkəzləri Lənkəran, Astara və Qızılağac idi. Lənkəran xanlığı Qafqaz, Yaxın Şərq ölkələri və Rusiya ilə davamlı ticarət əlaqələri saxlayırdı.

Lənkəran xanlığının əhalisi, əsasən, əkinçiliklə məşğul olurdu. Xüsusilə yüksək keyfiyyətli “Sədri”, “Akulə”, “Ənbərbu” və s. düyü növ-

lərinin yetişdirilməsi nəticəsində çəltikçilik təsərrüfatda əhəmiyyətli yer tuturdu. Lakin maldarlıq da əhalinin güzəranını təmin edən əsas sahələrdən idi. Xəzər dənizinin sahilində yerləşməsi balıqçılığın da inkişafına şərait yaratmışdı. Coğrafi özəllik, dağlarla əhatə olunmuş xanlıqda arıçılığın da geniş yayılmasını təmin edirdi.

Qara xanın apardığı tikinti-abadlıq işlərini xüsusi qeyd etmək lazımdır. O, "Lənkərana müxtəlif yerlərdən sənətkar və ustalar gətirtmişdi. O, şəhərin qala divarlarını, xan sarayını, məscid, hamam, bazar, karvansara inşa etdirdi. Bu dövrdə şəhərdə iki bazar var idi: Yuxarı (mərkəzi) və Aşağı bazar. Bu dövr tikililəri arasında gözəllik və memarlıq baxımından xan sarayı diqqəti daha çox cəlb edirdi. İki mərtəbədən ibarət olan saray başdan-başa şəbəkəli olub, rəngarəng şüşələrlə bəzədilmişdi" [7].

Lakin qonşu xanlıqlarla apardığı müharibələr Lənkəran xanlığını zəiflədirdi. Cəmaləddin Mirzə Rusiya meyilli siyasət yeritdiyi üçün qonşu xanlarla, xüsusilə İran meyilli hakimlərlə münasibətləri yaxşı deyildi. 1768-ci ildə gilanlı Hidayət xan on iki min nəfərlik güclü qoşunla Lənkəran xanlığına hücum edir. Qara xan əvvəlcə müqavimət göstərir, sonra isə Şindan qalasına çəkilib müdafiə mövqeyi tutur. Lakin Hidayət xanın sayca qat-qat çox ordusuna qalib gələ bilməyəcəyini görüb xərac verməyə razı olur.

Hidayət xanın hücumunu böyük xərac verməklə dəf etdikdən sonra Qara xan özünə siyasi və hərbi müttəfiqlər axtarmağa başlayır. Həmin dövrdə Quba xanı Fətəli xan Azərbaycan torpaqlarını vahid hakimiyyət altında birləşdirməyə çalışırdı. Qara xan qardaşı Kərbəlayi Sultanı kiçik dəstə ilə Fətəli xanın yanına danışıqlara, daha doğrusu, yardım istəməyə göndərir. Bu görüş 1785-ci ildə Lənkəran xanlığının Fətəli xanın hakimiyyətində olan Azərbaycan torpaqlarının tərkibinə daxil edilməsi ilə nəticələndi və bu ilhaq 1789-cu ilə kimi, yəni Fətəli xanın vəfatınadək davam etdi.

Həmin illər xanlığın siyasi və iqtisadi həyatında olduqca ağır illər idi. 1786-cı ildə Qara xan vəfat etmiş, hakimiyyətə oğlu Mir Mustafa xan keçmişdi (1816-cı ilədək xanlığı o idarə etmişdi). Fətəli xanın vəfatından sonra xarici müdaxilələr, xüsusilə də cənubdan olan hücumlar xanlığı zəiflədib əldən salmışdı. 1794-cü ildə Ağa Məhəmməd şah Qacarın hakimiyyətə gəlişi ilə vəziyyət daha da pisləşdi. Azərbaycan torpaqları xanlıqları ələ keçirməyə çalışan Qacar qoşunları ilə Qafqazda möhkəmlənməyi hədəfləyən Rusiya arasında müharibə meydanına çevrildi. Əvvəldən Rusiyaya meyilli olan Lənkəran xanlığı bu vəziyyətdə də mövqeyini qoruyub saxlayır və hətta qonşu xanları da buna təşviq edirdi. Hadisələrin gedişi də nəhayətdə Lənkəran xanlığının Rusiya tabeçiliyini qəbul etməsi ilə nəticələnir: "...Qacar öz qoşunlarını 1795-ci ildə həm İrəvan, həm də Lənkəran istiqamətində Azərbaycana yeritdi. Mir Mustafa xan düşmənə müqavimət göstərmək iqtidarında olmadığından Lənkəran əhalisini Sarı adasına köçürüb müdafiə mövqeyi tutdu. İran qoşunları getdikdən sonra Lənkərana qayıdan Mir Mustafa xan 1795-ci ilin sentyabrında öz nümayəndəsi Zaman bəyi Şimali Qafqaza, rus generalı Qudoviçin yanına, oktyabrda isə Kərbəlayi Əsədulla bəyi Peterburqa göndərdi. 1796-cı il martın 12-də Kərbəlayi Əsədulla bəy Talış xanlığının Rusiyanın himayəsində qəbul edilməsi haqqında Mir Mustafa xanın məktubunu II Yekaterinaya təqdim etdi" [7].

Lakin 12 oktyabr 1813-cü ildə Rusiya ilə İran arasında bağlanmış və Azərbaycanın iki hissəyə parçalanmasının əsasını qoyan Gülüstan sülh müqaviləsinədək Lənkəran xanlığı gah İranın, gah da Rusiyanın hücumlarına məruz qalmışdır.

1826-cı ildə Lənkəran xanlığı Rusiya tərəfindən tam işğal olundu və çarın fərmanı ilə ləğv edildi. 1814-cü ildə Mir Mustafa xanın vəfatından sonra xanlıq taxtına çıxmış və rus işğalına qarşı mübarizə aparmağa çalışsa da, sonradan İrana sığınmağa məcbur olmuş oğlu Mir Həsən xan 1931-ci ildə zəhərlənərək öldürüldü.

Lənkəran xanlığı Azərbaycan dövlətçiliyi ənənələrinin davam etdirilməsi və inkişafında mühüm rol oynamış siyasi qurum olmuşdur. Onun yeritdiyi daxili və xarici siyasət, qonşu dövlətlərin münasibətləri və siyasi əlaqələri də bunu bir daha sübut edir.

Lənkəran xanlığının yaranması, fəaliyyəti, Azərbaycan dövlətçiliyi tarixində oynadığı rol və s. barədə qiymətli araşdırmalar aparılmışdır. F.Əsədov, Y.Mahmudov, İ.Məmmədova və

başqalarının elmi-tədqiqat əsərləri bu baxımdan dəyərli mənbələrdir. İradə Məmmədovanın araşdırmalarında yer alan Lənkəran xanlığının adının dəqiqləşdirilməsinə dair tarixi mənbələrə əsaslanan fikirləri əhəmiyyət kəsb edir: "XVIII əsrin əvvəlinə aid olan sənəddə Abbasqulu xan Lənkəran hakimi kimi verildiyindən, Qara xanın hakimiyyətinin ilk dövrlərində onun rus arxiv sənədlərində, Rusiya İmperiyası Xarici Siyasət Arxivinin və Qafqaz Arxeoqrafik Komissiyasının aktlarının bir sıra sənədlərində Lənkəran xanlığı adlandığından xanlığın adını Talış deyil, Lənkəran xanlığı adlandırmağı məqsədəuyğun bildik. Burada biz bunu da unutmamalıyıq ki, xanlığın demək olar ki, müasiri olan dahi Azərbaycan mütəfəkkiri M.F.Axundov da onu Lənkəran xanlığı adlandırır. Həmçinin Səid Əli və C.Zeynaloğlu da xanlığı Lənkəran adlandırırdılar" [8, s.61].

Azərbaycan dövlətçiliyinin ən möhtəşəm səhifəsi isə Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin adı ilə bağlıdır. Yeni qurulan Azərbaycan hökuməti çətin tarixi-siyasi dönəmdə, olduqca mürəkkəb bir şəraitdə, bəlkə də mümkün olmayanı bacardı: "Azərbaycanda müstəqil, demokratik dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, ilk parlament və hökumət, dövlət aparatı, idarəetmə institutları formalaşdırıldı, ölkənin sərhədləri müəyyənləşdirildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, ərazi bütövlüyü və milli təhlükəsizliyin təmin edilməsi üçün mühüm işlər görüldü, dövlət bayrağı, himni və gerbi qəbul edildi, ana dili dövlət dili elan olundu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi və xalqın, milli dövlətçiliyin sonrakı illərdə hərtərəfli inkişafı üçün müstəsna əhəmiyyət kəsb edən digər mühüm məsələlərin həlli istiqamətində məqsədyönlü addımlar atıldı" [10].

Bütün Müsəlman Şərqinin ən ali demokratik, mütərəqqi idarəetmə prinsiplərini əsas götürən qanunverici orqanını – Azərbaycan Parlamentini yaradan Azərbaycan Xalq Cümhuriyyəti nəinki Şərqdə ilk dəfə olaraq, hətta Avropanın bəzi ölkələrindən də daha öncə qadınlara seçmək və seçilmək hüququ verdi, dövlətin bütün vətəndaşlarının bərabərhüquqlu olduqlarını tanıdı, irqi, milli, dini, sinfi ayrı-seçkilik aradan qaldırıldı. "Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyektinə çevrilməsi 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra onun bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı" [6].

Azərbaycanın şimalında qurulan və dünyanın 20 dövləti, o cümlədən Paris Sülh Konfransının Ali Şurası tərəfindən müstəqil dövlət kimi tanınan Azərbaycan Xalq Cümhuriyyəti ilə yanaşı, 1920-ci ildə cənubda da Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə "Azadistan dövləti" yaradıldı və burada da mütərəqqi islahatlar həyata keçirilməyə başlanıldı.

Sovet hakimiyyəti illərində Azərbaycan dövlətçiliyi ciddi sarsıntılara məruz qalsa da, Sovet rejimi xalqı öz tarixi köklərindən qoparıb ayırmağa, saxta beynəlmiləlçilik şüarları altında millətin kimliyini unutdurmağa çalışsa da, dərin ənənələrə malik olduğundan o, özünün əsas sütunlarını qoruyub saxlaya bildi və 1969-cu il iyulun 14-də Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbər təyin edilməsi ilə sovet hakimiyyətinin hüdudları çərçivəsində olsa da, dövlətin, respublikanın siyasi, iqtisadi, mədəni dirçəlişi və inkişafı istiqamətində cəsarətli və taleyüklü addımlar atıldı. Bu mərhələdən sonra görülən işlər, həyata keçirilən tədbirlər müstəqil Azərbaycan Respublikasının yarandığı illərdə əsas maddi və mənəvi baza rolunu oynadı.

18 oktyabr 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa etdi və özünü varisi sandığı Azərbaycan Xalq Cümhuriyyətinin qoyduğu prinsipləri bərpa etdi, bununla da keçmiş tarixinə, yüzillərlə mövcud olmuş dövlətçilik ənənələrinə sadiqliyini, uzun müddət sovet rejiminin təzyiqlərinə məruz qalmasına baxmayaraq, genetik yaddaşda qorunub saxlanılan dəyərlərə ehtiramını və onları şərəflə davam etdirəcəyini isbatladı. Müstəqil Respublikamız 1992-ci ildə BMT-yə üzv qəbul olunmuş, 12 noyabr 1995-ci ildə isə özünün Konstitusiyasını qəbul etmişdir. Avropa Şurası, ATƏT, İslam Konfransı Təşkilatı və Müstəqil Dövlətlər Birliyi kimi beynəlxalq təşkilatların üzvü olan Azərbaycan hazırda Avropa Birliyi, NATO, eləcə də digər beynəlxalq qurumlarla qarşılıqlı əməkdaşlıq edir və regionin aparıcı dövlətinə çevrilmişdir.

Dövlətçilik ənənələrinin inkişafı və sabitləşməsi, dövlətin möhkəmlənməsi isə, öz növbəsində, milli mədəniyyətin çiçəklənməsinə, milli identikliyin güclənməsinə, elmin tərəqqisinə şərait yaradır. Bu da dövlətçilik baxımından çox önəmli məqamdır. Çünki qloballaşan dünyada bir milləti və xalqı, onun malik olduğu dövləti digərlərindən fərqləndirən, özəl edən məhz qədim köklərə əsaslanan milli dəyərlər sisteminin formalaşmasıdır.

Tarixin müəyyən mərhələsində, siyasi təlatümlər, sosial-iqtisadi böhranlar, milli münaqişələr şəraitində dövlətin varlığı və gələcək mövcudluğu üçün təhlükə yarandıqda məhz həmin xalqın içərisindən onu öz arxasınca apara bilən, güclü əqidəli, gələcəyi görən, siyasi bəsirətə malik şəxsiyyətləri olan bir millətin, xalqın və dövlətin nicatına çevrilmişdir. Azərbaycan tarixində də belə şəxsiyyətlər olmuşdur: Babək, Şah İsmayıl Xətai, Məhəmməd Əmin Rəsulzadə. Müasir və müstəqil Azərbaycanın xilaskarı və qurucusu isə Ulu öndər Heydər Əliyevdir. Tarixçi alim, professor Murtuz Ələsgərov yazır: "Dünyamıza nəzər salsaq görərik ki, inkişaf edən ölkələrin hər biri hansısa prinsiplərə söykənərək bugünkü səviyyəyə gəlib çatıb. Məsələn, Hindistan Mhatma Qandinin müəyyən etdiyi prinsiplərə söykənərək inkişaf edir. ABŞ bu ölkənin bani atalarının, İstiqlaliyyət Bəyannaməsini ortaya qoyanların müəyyən etdiyi xətti əsas götürür. ABŞ İstiqlaliyyət Bəyannaməsi Amerika dövlətinin və xalqının söykəndiyi prinsipləri özündə əks etdirir, eyni zamanda bu ölkə yaranarkən ortada olan ənənələr, irəli sürülən prinsiplər hələ də ana prinsiplər olaraq qalmaqdadır. Baxmayaraq ki, Böyük Britaniya konstitusiyalı monarxiyadır, bu ölkə də tarixdən gələn ideoloji prinsiplərə söykənir. Qardaş Türkiyə Respublikası Atatürkçülük prinsiplərinə söykənir. Türkiyədə nə qədər siyasi partiyalararası dartışma, hakimiyyət dəyişikliyi və s. baş versə də, Atatürkün müəyyən etdiyi prinsiplər daim yaşayır" [4, s.5].

Ulu öndərin Azərbaycan dövlətçiliyi tarixində ən böyük, əvəzedilməz və möhtəşəm xidməti məhz Azərbaycanın bir dövlət kimi parçalanmasının qarşısını almağı oldu. O, bu missiya ilə həm Azərbaycan xalqının, həm də Azərbaycan dövlətinin, sözün əsl mənasında, xilaskarı rolunu şərəflə və bu işin məsuliyyətini qorxmadan, çəkinmədən çiyinlərinə götürərək yerinə yetirdi. Çünki Ulu öndər Heydər Əliyevin Azərbaycana ikinci dəfə rəhbərliyə başladığı illər olduqca mürəkkəb və ağır bir dövrə təsadüf etdi: keçmiş sovet rejimi dağılmış, bir-birilərindən istehsal-ixracat zənciri ilə məqsədli şəkildə asılı vəziyyətə gətirilmiş respublikalar arasında əlaqələr iflic olmuş, iqtisadiyyat, kənd təsərrüfatı çökmüşdü. Hələ üstəgəl ölkədə siyasi xaos hökm sürürdü. Digər keçmiş müttəfiq respublikalara nisbətən Azərbaycanın vəziyyəti bir də ona görə ağır və çıxılmaz idi ki, mənfur və xəyanətkar qonşu dövlət tərəfindən torpaqlarımız işğala məruz qalmışdı.

"1993-cü ildə xalqın tələbi ilə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra vəziyyət dəyişməyə başladı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclis iyunun 23-də prezident səlahiyyətlərini Ali Sovetin sədri Heydər Əliyevə həvalə etdi. Xalq öz rəhbəri Heydər Əliyevin ətrafında daha sıx birləşdi. 1993-cü il oktyabrın 3-də Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Müstəqil dövlət quruculuğu, onun təhlükəsizliyinin, ərazi bütövlüyünün təmin edilməsi, iqtisadiyyatın bərpa olunması, demokratik inkişaf, Azərbaycanın beynəlxalq əlaqələrinin qurulması və dünya birliyinə inteqrasiyası Heydər Əliyevin milli inkişaf strategiyasının başlıca konturlarını təşkil etdi" [10].

Azərbaycanda dövlətçilik ənənlərinin önəmli gücə malik olması, dövlətlə xalqın birliyi, Ulu öndərin xilaskar rolu cənub bölgəsində separatçılar tərəfindən yaradılmış qondarma Talış-Muğan qurumuna qarşı mübarizədə də özünü bir daha göstərdi. Sözügedən qondarma qurum yaradılarkən məhz Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarının əhalisi Əlikram Hümmətovun, eləcə də onun azsaylı tərəfdarlarının niyyətlərini rədd etmiş, onlara qarşı mübarizəyə qalxmışdılar. Əslində, həmin dövrdə belə bir ideyanın ortaya atılması və onun icraçılarının meydana çıxmağı Azərbaycandakı siyasi böhranın nəticəsi idi və məhz Heydər Əliyevin müdrik siyasəti nəticəsində bu böhranın qarşısını almaq mümkün ol-

muşdu. Məhz Ulu öndərin çağırışı ilə cənub bölgəsinin camaatı qondarma Talış-Muğan Muxtar Respublikasına qarşı üsyana qalxmışdı. Çarəsiz qalmış Əlikram Hümmətov bir müddət gizlənsə də, sonradan təslim olmağa məcbur qalmışdı. Beləliklə, Azərbaycan xalqı və dövləti müdrik rəhbərin uzaqgörən siyasəti və yenilməz qətiyyəti sayəsində bu çətin dönəmi geridə qoya və dövlətimizi parçalanmaqdan xilas edə bilmişdir.

Bu gün müstəqil və inkişaf etmiş Azərbaycan dövləti dünyanın aparıcı dövlətləri arasında söz sahibidir. Azərbaycan Avropa, Asiya və Amerikanın inkişaf etmiş dövlətləri ilə iqtisadi, siyasi əməkdaşlıq edir, beynəlxalq əhəmiyyətli layihələrdə iştirak edir. Azərbaycan xalqı və dövləti zəngin dövlətçilik irsi ilə öyündüyü kimi, qəhrəman övladlarının, şəhid qanlarının bahasına əldə etdiyi azadlığını, müstəqilliyini, ərazi bütövlüyünü, suverenliyini də mətanət və şərəflə qoruyur, milli adət-ənənələri, dəyərlərimizi bütün dünyaya tanıtmaq yolunda yorulmadan məqsədyönlü və uzaqgörən daxili və xarici siyasət xəttini izləyir.

Ali Baş Komandan, Prezident İlham Əliyevin sərkərdəlik məharəti ilə, qəhrəman hərbçilərimizin, vətən oğullarımızın rəşadəti ilə 2020-ci ildə Azərbaycanın möhtəşəm zəfəri ilə cəmi 44 günə 30 il işğal altında qalmış qədim torpaqlarımızın düşməndən təmizlənməsi də məhz Azərbaycan dövlətinin və xalqının birliyinin, xalqın dövlətin tutduğu siyasətə inamının, ona sədaqətinin, bir sözlə, dövlət-xalq birliyinin ən gözəl ifadəsinə çevrildi.

XXI əsrin ikinci yarısına qalib, zəfər çalmış, ərazi bütövlüyünü bərpa etmiş dövlət kimi qədəm qoyan Azərbaycan Respublikası öz şanlı tarixinin ən böyük quruculuq və möhkəmlənmə mərhələsini yaşayır.

Prezident İlham Əliyevin hələ illər öncə qeyd etdiyi kimi: "Biz bilirik nə istəyirik, biz bilirik hansı məqsədlərə doğru gedirik. Bizim siyasətimiz açıqdır, aydındır, atılan addımlarımız düzgün istiqamətdədir və məqsədimiz ölkəmizi daha da gücləndirmək, dünyada Azərbaycanın mövqelərini möhkəmləndirməkdir. Bizim siyasətimiz Heydər Əliyev siyasətidir, Heydər Əliyevin qoyduğu yoldur. Bizim dayağımız Azərbaycan xalqıdır və iqtidarın mənbəyi xalqdır. Biz bütün təşəbbüslərdə Azərbaycan xalqının dəstəyinə arxalanırıq. Bizim ideologiyamız azərbaycançılıq, dövlətçilik, müstəqillik ideologiyasıdır. Bu da bütün cəmiyyəti birləşdirir və biz bu yolla uğurla addımlayırıq" [1].

## Nəticə / *Conclusion*

Dövlətimizin daxili və xarici siyasətinin hərtərəfli dəstəklənməsi və qarşıya qoyulan vəzifələrin məsuliyyətlə yerinə yetirilməsi sahəsində respublikamızın bütün regionları kimi, Cənub bölgəsinin qədirbilən və zəhmətkeş camaatı da hər zaman dövlətin və dövlət başçısının, Ulu öndər Heydər Əliyev siyasi kursunun yorulmaz davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyevin yanındadır. Prezident, dövlət və xalq birliyi hər zaman özünün uğurlu nəticələrini verməkdədir.

## Ədəbiyyat / *References*


1. Azərbaycan Respublikası Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin nitqi. IV Qurultay – // http://yap.org.az/az/view/pages/40
2. Ağaverdi, X. Azərbaycanın dövlətçilik ənənələri çox zəngindir. // https://www.xalqcebhesi.az /news/culture/10616.html
3. Bədəlova, T. Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasında dövlət, hökmdar və xalq münasibətlərinin bədii həlli. // Nizami Gəncəvi almanaxı, I. – Bakı, 2019.
4. Ələsgərov, M. Dövlətçilik ənənələrinin banisi. // "Azərbaycan", 2009, 9 may. http://www.anl.az /down/meqale/azerbaycan/azerbaycan_may2009/78322.htm
5. Kərimli, T. Nizami və tarix. – Bakı: Elm, 2002.
6. Qədim dövrlərdən müstəqilliyə qədər. // https://republic.preslib.az/az_a2.html

7. Lənkəran xanlığı. // https://axtar.len.az/?q=L%C9%99nk%C9%99ran_xanl%C4%B1%C4%9F%C4%B1
8. Məmmədova, İ. Lənkəran xanlığının yaranmasına dair. // AMEA Tarix İnstitutu. Elmi əsərlər. 21-ci cild, 2007. 23/2007.
9. Ömərov, V. Azərbaycanda dövlətçilik ənənələri. https://sesqazeti.az/news/mia/ 625319.html
10. Tarix. Ən qədim zamanlardan XX əsrin əvvəllərinədək. // tarix-az.pdf. https://www.meclis.gov.az/documents/tarix-az.pdf?cat=22&lang=az

# ИСТОРИЧЕСКИЕ КОРНИ ТРАДИЦИЙ АЗЕРБАЙДЖАНСКОЙ ГОСУДАРСТВЕННОСТИ В ЮЖНОМ РЕГИОНЕ

**Рейхана Садыхова**
Институт рукописей имени Мохаммеда Физули НАНА. Азербайджан.
E-mail: reyhanesadiqova@gmail.com

**Резюме.** На протяжении тысячелетий те или иные географические территории были заселены разными народами, которые вносили свой неоценимый вклад в развитие мировой цивилизации и создавали государства, со временем оставившие свои следы в мировой истории. Изучение истории государственности разных народов важно не только с точки зрения познания прошлого, а также предопределения тенденций будущего развития. Исследованием истории государственности можно добиться внесения ясности в некоторые проблемные и затененные периоды истории независимого и суверенного государства и тем самым предоставить подрастающему поколению возможность определения национального самосознания и познания духовного единства с прошлым своего народа. Каждый индивидуум народа и национальности обязан приобщиться к глубоким знаниям о славных страницах своего государства и должен суметь владеть наследием предков, оставивших прочные принципы государственности. А также с любовью, уважением и ответственностью продолжить преемственность. Азербайджанский народ со своим многовековым историческим прошлым также обладает блестящей историей национальной государственности. История государственности Азербайджана проделала долгий путь развития, упрочения и укрепилась как единая система.
**Ключевые слова:** государство, народ, нация, Гейдар Алиев, Азербайджан, Южный регион, Ленкоранское ханство